**AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT STATİSTİKA KOMİTƏSİ**

**AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT TƏSNİFATI**

# *MÜLKİYYƏT NÖVLƏRİNİN STATİSTİK TƏSNİFATI*

**AZT004-2001**

*Rəsmi nəşr*

**BAKI-2001**

Azərbaycan Respublikası Dövlət
Standartlaşdırma və Metrologiya
Mərkəzində təsdiq edilib
Qeydiyyat №si 43
**"05" iyul 2001-ci il**

Azərbaycan Respublikası Dövlət
Statistika Komitəsinin 29 iyun
**2001-ci il** tarixli kollegiya qərarı
ilə təsdiq edilmişdir

# *MÜLKİYYƏT NÖVLƏRİNİN STATİSTİK TƏSNİFATI*

**Bu təsnifat Azərdövlətstandartın icazəsi olmadan rəsmi nəşr kimi tam və ya qismən yenidən çap oluna, çoxaldıla və ya yayıla bilməz**

Azərbaycan Respublikası Maliyyə, Əmək və
Əhalinin Sosial Müdafiəsi, Ədliyyə və Vergilər nazirlikləri,
Gömrük komitəsi,
Dövlət Standartlaşdırma və Metrologiya Mərkəzi,
Milli Bank və Elmlər Akademiyasının
İqtisadiyyat institutu ilə

**razılaşdırılmışdır**

**---------------------------------------------------------------**

.

***Təsnifat «1998-2002-ci illərdə Azərbaycan Respublikasının dövlət statistika sistemində islahatların aparılmasına dair Dövlət Proqramı»na uyğun olaraq işlənib hazırlanmışdır.***

Təsnifat A.M.Vəliyevin rəhbərliyi ilə

A.H.Mansurov, F.H.Hacıyev və Q.F.Əliyev tərəfindən işlənib hazırlanmışdır.

**AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT TƏSNİFATI**

# MÜLKİYYƏT NÖVLƏRİNİN STATİSTİK TƏSNİFATI
# STATİSTİCAL CLASSIFICATİONS OF THE FORMS PROTERTY

**AZT004-2001**

Tətbiq edilmə tarixi 2001-08-01

## GİRİŞ

Hazırkı nəşr Dövlət Statistika Komitəsinin 15 noyabr 1995-ci il tarixli kollegiya iclasının qərarı ilə təsdiq edilmiş və 1 yanvar 1999-cu il tarixli AZT-004 №si ilə Azərbaycan Respublikası Dövlət Standartlaşdırma və Metrologiya Mərkəzində dövlət standartı kimi qeydiyyata alınmış Azərbaycan Respublikasının Mülkiyyət növləri təsnifatının (birinci versiya) yenidən baxılmış variantıdır (ikinci versiya)

"Mülkiyyət növlərinin statistik təsnifatı" 12 noyabr 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikası Konsitutsiyasının müvafiq maddələrinə istinad edilərək hazırlanmışdır. Azərbaycan Respublikası Konsitutsiyasının I bölməsinin II fəslinin 13-cü maddəsinə əsasən, mülkiyyət dövlət mülkiyyəti, xüsusi mülkiyyət və bələdiyyə mülkiyyətində ola bilər. Yerli xüsusiyyətləri və respublikamızda iqtisadiyyatın müxtəlif sahələrinə qoyulan çoxsaylı xarici investisiyaları nəzərə alaraq statistik məqsədlər üçün təsnifatda mülkiyyət növlərinə daha 3 növ – xarici mülkiyyət, birgə (xarici qarışıq) mülkiyyət və beynəlxalq təşkilatların mülkiyyəti əlavə edilmişdir.

“Mülkiyyət növlərinin təsnifatı”nın yenidən işlənməsində əsas məqsəd keçən dövr ərzində qəbul edilmiş qanun və sərəncamların tələblərini nəzərə almaqdan ibarətdir.

Təsnifat iki hissədən ibarət olub, kod və ad hissələrinə bölünür:

**1. Dövlət mülkiyyəti**
**2. Xüsusi mülkiyyət**
**3. Bələdiyyə mülkiyyəti**
**4. Xarici mülkiyyət**
**5. Birgə (xarici qarışıq) mülkiyyət**
**6. Beynəlxalq təşkilatların mülkiyyəti**

## 1. DÖVLƏT MÜLKİYYƏTİ

Mülkiyyət hüququ dövlətə məxsus olan müəssisələrin, təşkilatların və idarələrin mülkiyyəti

## 2. XÜSUSİ MÜLKİYYƏT

Mülkiyyət hüququ dövlətə və bələdiyyəyə tam məxsus olmayan yerli müəssisələrin, təşkilatların və fiziki şəxslərin mülkiyyəti

## 3. BƏLƏDİYYƏ MÜLKİYYƏTİ

Yerli əhəmiyyətli məsələləri həll etmək səlahiyyətləri verilən və dövlət orqanları sisteminə daxil olmayan yerli idarəetmə orqanlarının və onlar tərəfindən yaradılan vahidlərin mülkiyyəti

## 4. XARİCİ MÜLKİYYƏT

Azərbaycan Respublikasının ərazisində yerləşən və əmlakı hər hansı xarici dövlətə, xarici qarışıq hüquqi və fiziki şəxslərə məxsus olan təşkilatın mülkiyyəti

## 5. BİRGƏ (XARİCİ QARIŞIQ) MÜLKİYYƏT

Xarici ölkə hüquqi və ya fiziki şəxslərinin iştirakı ilə yaradılan birgə müəssisələrin mülkiyyəti.

## 6. BEYNƏLXALQ TƏŞKİLATLARIN MÜLKİYYƏTİ

Bütün beynəlxalq təşkilatların mülkiyyəti.